# Parlament-QHT əməkdaşlığı müzakirə olunub



**Noyabrın 1-də Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin iclası keçirilib. İclasda "Parlament - QHT əməkdaşlığının gücləndirilməsi" mövzusunda müzakirələr aparılıb.**

İclası açan Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli parlamentlə vətəndaş cəmiyyətləri arasında əməkdaşlığı zəruri edən amillərə diqqət çəkib. O, bugünkü geosiyasi vəziyyətdən danışaraq, həmrəy olmağın vacibliyini vurğulayıb,Vətən müharibəsində qazanılan zəfərdən sonra Azərbaycanın regionda yeni reallıqlar yaratdığını qeyd edib.

QHT-lərin fəaliyyətindən və vaxtilə bu sahədə müəyyən nöqsanların mövcudluğundan danışan Fəzail İbrahimli bildirib ki, QHT-lər haqqında qanun qəbul edildikdən sonra Azərbaycan qanunvericiliyində bu sahədə tənzimləmə təmin olunub. Azərbaycanın sabitliyin, təhlükəsizliyin bərqərar edildiyi bir ölkə olduğunu vurğulayan komitə sədri qeyd edib ki, hər birimiz bütün gücümüzlə, birliyimizlə dövlətimizə, dövlətçiliyimizə xidmət edirik.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvü, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının sədri Azay Quliyev parlament-QHT əməkdaşlığı mövzusunda müzakirələrin səmərəli olacağına inamını ifadə edib. Bildirib ki, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri ölkəmizin maraqlarının dünyada qorunması məsələsində daha fəal olmalıdırlar.

Tədbirdə Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Sahib Alıyev, komitə üzvləri Sevinc Fətəliyeva, Azər Badamov, Anar İsgəndərov, Parlament Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid mövzu ilə bağlı fikirlərini səsləndiriblər. Bildirilib ki, dövlət başçısının rəhbərliyi ilə ölkədə aparılan islahatlar həyatın müxtəlif istiqamətlərində, o cümlədən yeni cəmiyyət quruculuğu sahəsində uğurla həyata keçirilir. Çıxışlarda dövlət müstəqilliyimizin və ərazi bütövüyümüzün qorunması naminə milli həmrəyliyimizin və birliyimizin önəmli olduğu vurğulanıb, bu sahədə QHT-lərin əhəmiyyətli rolundan söhbət açılıb. Həmçinin parlament və vətəndaş cəmiyyətləri arasında əməkdaşlığın gücləndirilməsinin vacibliyindən danışılıb.

Milli QHT Forumunun prezidenti Rauf Zeyni QHT-lərin Azərbaycanın milli maraqlarının qorunması istiqamətində üzərlərinə düşən işin öhdəsindən bundan sonra da layiqincə gələ biləcəklərini söyləyib. Mövzu ətrafında aparılan müzakirələrdə iştirak edən QHT nümayəndələri fikirlərini bildirib, parlament-QHT əməkdaşlığının genişləndirilməsi istiqamətində fəallığın artırılmasının vacibliyini vurğulayıblar.

Parlamentin vitse-spikeri, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli müzakirələrin səmərəli keçdiyini bildirərək, fikir mübadiləsində fəallıq göstərdiklərinə görə iclas iştirakçılarına təşəkkürünü ifadə edib.

***"Azərbaycan"***

Azərbaycan.- 2022.-2 noyabr.- S.5.